YANVAR-MAY, 2019

# RÜBLÜK İCMAL

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*



İCMAL

**DP MƏZUNLARININ UĞURLARI**

**TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR**

**MÜKAFATLAR**

## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**




# "CİTY, UNİVERSİTY OF LONDON"DA XOCALI FAICƏSİ VƏ MART SOYQIRIMI İLƏ ƏLAQƏDAR TƏDBİR KEÇİRİLMİŞDİR.








## "Maskalanmış soyqırımlar"

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın "City, University of London" Universitetində "Hüquqşünaslıq" ixtisası üzrə təhsil alan Sabir Məmmədovun təşkilatçılığı ilə 28 Mart, 2019-cu il tarixində Xocalı faciəsinə və 31 Mart soyqırımına həsr olunmuş "Maskalanmış soyqırımlar" adı altında akademik və müzakirə paneli formatı tədbir keçirilmişdir. Tədbirin baş tutmasında, City Universitetində fəaliyyət göstərən "Azerbaijan Society City University London" Cəmiyyətinin 11 nəfərlik komandasının aktiv iştirakı və əvəzsiz köməyi ilə həyata keçirilmişdir. Mövzunun universitetdə elmi cəhətdən müzakirə olunması və Azərbaycan Respublikasının Birləşmiş Krallıqdakı səfiri cənab Tahir Tağızadənin universitetə gəlməsi yüksək maraqla qarşılanmaqla yanaşı, bu formatlı tədbirin daha məlumatlandırıcı və uğurlu olduğunu sübut etmişdir. Tədbirin fərqli cəhəti ondan ibarətdir ki, tədbirdə təqdimatlardan əlavə olaraq auditoriyanın suallarına açıq panel müzakirə keçirilmişdir.

Tədbirin adı xarici vətəndaşların marağını cəlb etməsi üçün "Maskalanmış soyqırımlar" adlandırılmış və gözlənildiyi kimi yüksək marağa səbəb olmuşdur. Universitetdə posterlər, flierlər təqdim edilməklə və sosial şəbəkələrdə reklam edilməklə insanların diqqəti cəlb olunmuşdur.

Təqdimat və panel müzakirələrdə tədbirin təşkilatçısı və soyqırımın hüquqi aspektləri ilə bağlı çıxış edən Sabir Məmmədov, İngiltərənin "Mergul law" hüquq firmasında vəkillik fəaliyyəti ilə məşğul olan və soyqırımın hüquq açıqlamasını verən James Tierney, Londonda fəaliyyət göstərən Azerbaijan House-un təsisçisi Doktor Ali Atalar, Tarixşünas, 50-dən çox yazıları və 5 kitabı olan Tamara Dragadze iştirak etmişdir. Tədbirdə Xocalı və 31 Mart hadisələrinin soyqırım olduğu ilə bağlı slideshow təqdim olunmuşdur.Məsələyə hüquqi, siyasi və tarixi aspektlərdən yanaşılan bu tədbirdə 70-i xarici olmaqla 120 nəfər, Britaniyada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər. Tədbirdən sonra xarici vətəndaşlar tədbirdəki təqdimatların elektron versiyasını istəməklə, çox bəyəndiklərini, xüsusilə də, panel müzakirə formatını alqışladıqlarını və ətraflı məlumat aldıqlarını bildirdilər.

İngiltərə vətəndaşları ilə yanaşı digər xarici olkələrin təmsilçilərinin spiker və dinləyici rolunda çıxış etməsi tədbirin maraq doğuran olması əsaslarından biri idi. Tədbirin maraqlı və diqqət cəlb edən keçirilməsini bununla ölçmək olar ki, tədbir planlaşdırıldığından iki dəfə artıq müddətə davam etməsinə baxmayaraq izləyicilərin aktiv iştirakına ve marağına səbəb olmuşdur. Panel müzakirələrdə onları maraqlandıran Azərbaycan Respublikasının bu mövzudakı siyasəti ilə bağlı suallar verməklə iştirak etmişlər.

# "BÖYÜMƏYƏN UŞAQLAR" TAMAŞASI XOCALI SOYQIRIMINI YÜKSƏK ESTETİK MEYARLARLA YAYMAĞA KÖMƏK ETDI"

RÜBLÜK İCMAL



## Türkər Qasımzadə

2010-2011-ci illər ərzində Dövlət Proqramı çərçivəsində ABŞ-ın Manhattan Musiqi məktəbində "Bəstəkarlıq" ixtisası üzrə təhsil almışdır. O, bir çox beynəlxalq müsabiqələr laureatıdır.

## Xocalı soyqırımın ildönümü ilə bağlı tamaşa nümayiş olunmuşdur.

Ukraynanın paytaxtı Kiyev şəhərində Xocalı soyqırımı hadisələrini bədii üslubda çatdırmaq məqsədilə "Böyüməyən uşaqlar" adlı tamaşa nümayiş olunmuşdur. Tamaşanın musiqisi Dövlət Proqramı məzunu Türkər Qasımzadə tərəfindən bəstələnmişdir. Onun Modern.az mətbuat agentliyinə verdiyi müsahibənin bir hissəsini sizə təqdim edirik:
"- İlk növbədə qeyd edim ki, belə bir tamaşanın ərsəyə gəlməsi çox vacib idi. İndi insanlar bu kimi hadisələri məhz belə tamaşaların gücü ilə daha aydın dərk edirlər. Əlbəttə, Xocalı həqiqətlərini dünya ölkələrində yüksək estetik meyarlarla yaymağa çalışmaq milli təəssübkeşlik məsələsidir. Güman edirəm ki, məhz tamaşada bu faciəvi mövzunun bədii həlli zamanı qarşıya qoyulmuş əsas məqsədlərdən biri də o idi ki, tamaşa hər mənada müasir teatr, dramaturgiya və musiqi dilinin qanunauyğunluqları ilə tam mənada uzlaşsın. Bu uzlaşmadan yaranan bədii həllin müasir auditoriyaya təsir qüvvəsi daha çox olur və Xocalı mövzusunun da məhz bu şəkildə təqdimatı tamaşanın uğurlu olmasında əsas həlledici məqamlardandır. Tamaşanın ideya müəllifi Ukraynada Azərbaycanlıları Birləşmiş Diasporunun sədr müavini Murad Cəfərov tamaşa üçün musiqi yazmağı mənə həvalə edəndə çox güman ki, estetik baxımdan mənim də bu müasir uzlaşmanı ərsəyə gətirə biləcək musiqi yazacağıma əmin idi. Məşqlərdə özüm iştirak edə bilmədiyim üçün baş verənlər haqqında tamaşanın rejissoru Yuriy Klyatskin və ideya müəllifi M.Cəfərovla müzakirə edir, musiqisini yazırdım. Məhz bu yaradıcı söhbətlərin və mənəvi dəstək nəticəsində aradakı məsafəni dəf edərək tamaşaya uyğun musiqi yazmağa nail oldum. Bilirsiniz, istənilən tamaşaya musiqi yazılanda rejissorun bəstəkardan dəqiq hansı formada, əhvalda musiqi istəməyini ifadə etmək qabiliyyəti çox vacib amildir. Yuriy Klyatskinin bu barədə çox dəqiq göstərişləri mənim işimi asanlaşdırdı və tamaşaya uyğun musiqi yazmağıma yol xəritəsi kimi kömək oldu.
- Xocalı soyqırımı  bizim milli faciəmizdən başqa həm də böyük mənada bir insanlıq faciəsidir. Mən bir musiqiçi və vətəndaş olaraq, bütün varlığımla bu haqsızlığın yerdə qalmaması üçün milli mübarizəmizi dayanmadan gücləndirməyə çalışacağam. Əlbəttə ki, ölkədən kənarda yaşayan hər bir azərbaycanlı kimi mən də bu istiqamətdə əlimdən gələni etməyə çalışacağam."

**Mənbə**:https://modern.az/az/news/193234?fbclid=IwAR00zAhj-7-OxAQEQfR8Nxrhc8av35NXtoyrAkHz2KIlr3-1uoizt4dQ4bQ#




YANVAR-MAY 2019

# İsveçrənin nüfuzlu “Le Matin Dimanche” jurnalında məqaləsi dərc olunan Dövlət Proqramı məzunu

RÜBLÜK İCMAL



**“Güclü dəstəyi olan Bakı futbolda öz yerini möhkəmləndirməyi arzulayır”**

“Güclü dəstəyi olan Bakı futbolda öz yerini möhkəmləndirməyi arzulayır” sərlövhəsi ilə təqdim olunan məqalədə mayın 29-da UEFA Avropa Liqasının Bakıda baş tutacaq final oyunu ilə yanaşı, paytaxtımızda həm də Avro-2020-nin keçiriləçəyindən, SOCAR və UEFA-nın əməkdaşlığından bəhs edilib.Rusiya, Qətər, Çin və BƏƏ kimi Azərbaycanın da futbol sahəsinə son illərdə çox böyük diqqət ayırdığı vurğulanan yazıda Dövlət Proqramı çərçivəsində Fransanın "L'École Nationale Supérieure d'Architecture de Montpellier" Universitetində "Memarlıq" ixtisası üzrə təhsil almış və Cenevrə Universitetinin ilk azərbaycanlı elmi əməkdaşı-doktorantı, urbanizm və şəhər planlaşdırılması üzrə ekspert Tural Əliyevin fikirlərinə də yer ayrılıb.

T.Əliyevin fikrincə, Avropa Liqasının finalının Bakıda keçirilməsi azırbaycanlılar üçün qürur mənbəyidir, çünki bu, Azərbaycan və Avropa arasında strateji yaxınlaşmanı möhkəmləndirir.

“Bakı idmanla siyasət arasında əlaqəni əla anlayır. Bu, işıqlandırma vasitəsi və alətidir. Yarışlar zamanı biz dialoq, mədəniyyət, siyasət və urbanizasiya barədə danışa bilirik. Göydələnlərin ucaldılması, emblematik binaların inşa edilməsi, ictimai yerlərin və parkların yaradılması, eləcə də Olimpiya stadionunun tikilməsi özü-özülüyündə şəhərin əzəmətinin və gücünün göstəricisidir, onun iqtisadi inkişafının əks olunmasıdır və kapitalın cəlb olunmasına istiqamətlənən aydın informasiyadır”, – deyə o, qeyd edib.

O, bildirib ki, son illər FİFA və UEFA bütün ölkələr üçün imkanlar yaratmaq istəyir: “Bu mənada, Azərbaycan futbolun irəliləməsində Böyük Britaniya və ya İspaniya qədər əhəmiyyətli rol oynaya bilər. Təsəvvür edin, təqribən 30 il öncə Berlin divarının sökülməsi dönəmində bizim ölkə xaos və müharibə ilə qarşılaşmışdı və nəticədə ərazisinin 20%-i işğal olundu... Amma 2005-ci ildən başlayaraq, neft gəlirlərinə görə Azərbaycan öz uğurunun tarixini yazmaq istəyir. Beynəlxalq səviyyəli tədbirlər əldə olunmuş uğurların nümayişi üçün əla fürsətdir. 2015-ci ildə Azərbaycanda I Avropa Oyunları keçirilərkən mən bunun şahidi olmuşam. Mənim üçün müsəlman və xristian sivilizasiyalarının kəsişdiyi məkanda yerləşən Azərbaycan Avropa və Asiya arasında körpü funksiyalarını özündə birləşdirir”, – deyə Cenevrə Universitetinin elmi əməkdaşı söyləyib. **Ətraflı>>**



# DÖVLƏT PROQRAMI MƏZUNLARI GÖRÜŞLƏRDƏ

*Rüblük İcmal*

Yanvar-May 2019









## ADPU-DA TƏLƏBƏ-GƏNCLƏRİN "GƏLƏCƏYİN QURUCULARI" ADLI I FORUMUNUN BƏYANNAMƏSİ QƏBUL EDİLİB

Fevralın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetində Gənclər Fondunun maliyyə dəstəyi, ali məktəbin rəhbərliyinin və ictimai təşkilatların dəstəyi ilə gənc əməkdaş Sahil Qələndərovun layihəsi olan "Tələbə-gənclərin "Gələcəyin Qurucuları" adlı I Forumu" çərçivəsində yekun müzakirələr keçirilib. Layihənin məqsədi region və paytaxt gəncləri arasında əlaqə yaratmaq və daimi ideya mübadiləsini təmin edəcək "fikir körpüsü" qurmaq, həmçinin müasir dövrün tələblərini diqqətə çatdırıb, tələbə-gənclərə gələcək fəaliyyətləri üçün lazımi bilik və bacarıqlara yiyələnmələrində düzgün istiqamət göstərməkdir. Forumda Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın Qlazqo Universitetinin məzunu Orxan Sultanov, Liverpul Universitetinin məzunu və ADPU-nun inzibati və iqtisadi işlər üzrə prorektoru Ümid Mehdiyev və Avstraliyanın La Trobe Universitinin məzunu Nərgiz Sadıxzadə iştirak etmişlər və mövzu üzrə fikirlərini bölüşüblər. **Ətraflı>>**

## PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər. Görüşdə ölkə Prezidenti xalqımızın qədim mədəniyyəti, Azərbaycanda aparılan sosial siyasət, sənət adamlarının nailiyyətləri və bu istiqamətlərdə görülmüş və nəzərdə tutulmuş işlər haqqında geniş söhbət açmışdır. Müzakirələrdə iştirak edən yaradıcılıq ittifaqlarının, birliklərin rəhbərləri, görkəmli sənətçilərimiz çıxış edərkən nailiyyətləri ilə bərabər, yaranmış problemləri haqda məlumat vermişlər. Qeyd edək ki, görüşdə Dövlət Proqramı çərçivəsində Rusiyanın Çaykovski adına Moskva Dövlət Konservatoriyasında "Skripka" ixtisasından fərqlənmə ilə məzun olmuş, beynəlxalq müsabiqələr laureatı, gənclər üçün Prezident mükafatçısı Ceyla Seyidova da iştirak etmişdir.

## KƏND TƏSƏRRÜFATI NAZİRİ BİR QRUP XARİCDƏ TƏHSİL ALMIŞ GƏNCLƏ GÖRÜŞMÜŞDÜR

Kənd təsərrüfatı naziri İnam Kərimov fevral ayında nazirliyin xaricdə təhsil almış əməkdaşları ilə görüşüb.
Nazir bildirib ki, kadr potensialının zənginliyi, peşəkar kadrların mövcudluğu hər bir sahənin inkişafının əsas amillərindən biridir. Xaricdə təhsil almış və Kənd Təsərrüfatı Nazirliyi sistemində işə qəbul olunmuş əməkdaşlara uğurlar diləyən nazir qeyd edib ki, bu əməkdaşlar öz bilik və təcrübələrini aqrar sahənin inkişafı üçün sərf etməlidir. Görüşdə Dövlət Proqramı çərçivəsində müxtəlif ölkələrdə təhsil almış məzunlar da iştirak etmişdir. Onlardan Fransada təhsil almış və Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini Toğrul Cəfərov çıxış edərək göstərilən etimada görə təşəkkür etmişdir. **Ətraflı>>**

## SUMQAYITDA "SOCAR POLYMER"İN YÜKSƏKSIXLIQLI POLİETİLEN ZAVODUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞ DÖVLƏT PROQRAMI MƏZUNU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.Bildirildi ki, "SOCAR Polymer" layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. Qeyd edək ki, zavodun açılışında əməyi keçən Dövlət Proqramı çərçivəsində Kanadanın Alberta Universitetində "Kimya mühəndisliyi" ixtisası üzrə təhsil almış Asif Məmmədov "SOCAR Polymer" MMC-də çalışan mühəndislərindən biri olaraq iştirak etmişdir. **Ətraflı>>**



YANVAR-MAY 2019

# MƏZUNLARIN UĞURLARI

RÜBLÜK İCMAL



## Pərviz Hacıyev

Dövlət Proqramı çərçivəsində Türkiyənin Ankara Universitetində "Urologiya" sahəsi üzrə rezidentura təhsili almış Pərviz Hacıyev yanvar ayında Avropa Uşaq Urologiyası Bordunun yazılı və şifahi imtahanlarını müvəffəqiyyətlə verərək Avropa Bord Sertifikatli Uşaq Uroloqu ünvanını qazanmışdır. Qeyd edək ki o bu uğuru ilə ölkəmizdə ilkə imza atmışdır.

## Anar Qocayev

Dövlət Proqramı çərçivəsində ABŞ-ın Kornel Universitetində "Ginekologiya" ixtisası üzrə rezidentura təhsili almış Anar Qocayev fevral ayında ABŞ-ın "The American Board of Obstetrics and Gynecology" imtahanını uğurla verərək kollegiyaya üzv olmuşdur.






## Leyla Cabbarzadə

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Şeffild Universitetində "Təhsilin təşkili və idarə edilməsi" ixtisası üzrə magistratura təhsili almış Leyla Cabbarzadə BMT-nin Gürcüstan Assosiasiyasının təşəbbüsü və maliyyə dəstəyi ilə Azərbaycanda "Gənclərin inkluziv itirakçılığı" proqramını həyata keçirmişdir. Həmin proqramın bir hissəsi olaraq həssas qruplarda olan, xüsusi ilə məcburi köçkünlük status olan gənclərin bacarıqlarının və məlumatlarının artırılması, onların gələcəkləri ilə bağlı verəcəyi qərarların gücləndirilməsi üçün təlim proqramı keçirilmişdir.Təlim proqramı məcburi köçkün, yeniyetmə və gənclərin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə Şuşa rayonundan olan məcburi köçkünlər üçün nəzərdə tutulmuş Şuşa rayon Malıbəyli kənd 1 nömrəli tam orta məktəbində baş tutmuşdur. Şagirdlər təlim boyunca ingilis dilində dinləmə tapşırıqları, qısa filmlərin müzakirəsi və həyati bacarıq dərslərində iştirak etmişdirlər. Eyni zamanda, Britaniyada təhsil almış gənclərlə görüşüb təhsil və karyera barədə söhbət etmə imkanları da olmuşdur. Layihə uğurla başa çatmışdır.

# Məzunların uğurları








## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ İCTİMAİ SAĞLAMLIQ PROQRAMINDA İŞTİRAK EDƏN DÖVLƏT PROQRAMI MƏZUNU

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Esseks Universitetində "Bioloji təbabət" ixtisası üzrə bakalavr təhsili almış Aysel Rəhimli aprel ayında Ümumdünya Səhiyyə Təşkilatının 22 ölkəni əhatə edən Yaxın Şərqdəki ictimai sağlamlıq proqramlarında iştirak etmişdir. Hal-hazırda onun hazırladığı və ÜST-nın baş ofisinin təsdiq etdiyi ictimai sağlamlıqla əlaqədar yeni bir layihənin Yaxın Şərq ölkələrinin birində həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda A.Rəhimlinin bu istiqamətdə ÜST-nin ölkəmizlə bağlı bir layihəsini də reallaşdırmağı planlaşdırır.

## AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ WORLDFOOD AZERBAIJAN 2019 SƏRGİSİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT PROQRAMI MƏZUNU

Dövlət Proqramı çərçivəsində Macarıstanın "Corvinus University of Budapest" Universitetində "Beynəlxalq biznesin iqtisadiyyatı" ixtisası üzrə bakalavriat təhsili almış Bahadur Cabbarovun "Crispa" layihəsi Azərbaycan Beynəlxalq Qida Sənayesi və WorldFood Azerbaijan 2019 sərgisində təqdim olunmuşdur.

"Crispa" haqqında B.Cabbarlının fikirləri:

"Mən 2012-2016-cı illərdə Dövlət Proqramı çərçivəsində Macarıstanda təhsil almışam. Sizləri qardaşımla biryerdə qurduğum yeni brend ilə tanış etmək istəyirəm. Almanın uğurlarını hərkəs bilir. Biz də almanın uğurlarına inanıb alma (daha sonra digər) çipsi istehsal edən bir şirkət qurduq (CRİSPA SNACKS MMC). Heç bir kimyəvi və zərərli tərkibi olmayan, vitaminlərlə dolu bir brend yarandı"

## FİLM FESTİVALININ FİNALINA VƏSİQƏ QAZANMIŞ DÖVLƏT PROQRAMI MƏZUNLARI

"Palm Springs İnternational Film Festival" ABŞ-da hər il keçirilən və qısametrajlı filmlərin nümayiş olunduğu film festivalıdır. Sözügedən festivalda bu il Dövlət Proqramı çərçivəsində B.Britaniyanın "London International Film School"da "Film istehsalı" ixtisası üzrə magistratura təhsili almış Orxan Ağazadə və Möhsün Quliyev də iştirak etmişdir. Onların hazırladıqları qısametrajlı filmlər iyun ayının 18-24-ü ərəfəsində Kaliforniyada keçiriləcək müsabiqədə nümayiş olunacaqdır.




# "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"

**YANVAR-MAY 2019**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Gülminə Məlikzadə**
**(gulmina.melikzade@edu.gov.az)**

**Aysel Kərimli**
**(aysel.karimli@edu.gov.az)**

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu